**AZƏRBAYCAN RESPUBLİKASI**
**İCBARİ TİBBİ SIĞORTA ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN**

# İDARƏ HEYƏTİNİN QƏRARI

№ 42

**Bakı şəhəri** "10" dekabr 2021

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 21 yanvar 2020-ci il tarixli 2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində çalışan səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydası"na dəyişiklik edilməsi haqqında**

Səhiyyə işçilərinin əməkhaqlarının tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi, onların maddi rifahının yüksəldilməsi və sosial müdafiəsinin gücləndirilməsi məqsədilə "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının 3.7-ci bəndini, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"nin 4.5.21-ci yarımbəndini rəhbər tutaraq, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti

**Qərara alır:**

1. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 21 yanvar 2020-ci il tarixli 2 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində çalışan səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydası"na aşağıdakı məzmunda 17-1-ci hissə əlavə edilsin:

**"17-1. Tibb müəssisələrinin elmi şöbələrində çalışan işçilərinin əmək haqlarına sabit aylıq həvəsləndirici əlavələrin müəyyən edilməsi**

Tibb müəssisələrinin elmi şöbələrində çalışan işçilərinin əmək haqlarına sabit aylıq həvəsləndirici əlavələrin məbləği aşağıdakı cədvəl üzrə müəyyən edilir:

| Sıra nömrəsi | İxtisasın/vəzifənin adı | Aylıq sabit həvəsləndirici əlavələrin məbləği (manat) |
|---|---|---|
| 1 | Elmi şöbənin müdiri | 500,00 |
| 2 | Baş elmi işçi | 400,00 |
| 3 | Aparıcı elmi işçi | 350,00 |
| 4 | Böyük elmi işçi | 300.00 |
| 5 | Elmi işçi | 250,00 |
| 6 | Kiçik elmi işçi | 200,00 |
| 7 | Laborant (böyük laborant daxil olmaqla) | 150,00 |
| 8 | Qeyri-tibb işçiləri | 100,00 |

2. Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Müşahidə Şurasına tapşırılsın ki, 1 ay müddətində işçilərinə sabit aylıq həvəsləndirici əlavənin məbləğləri ilə bağlı təkliflərini İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə təqdim etsinlər.

3. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Marketinq və ictimaiyyətlə əlaqələr departamenti (A.Əhmədova) bu Qərarın Agentliyin rəsmi internet saytında yerləşdirilməsini təmin etsin.

4. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin struktur bölmələrinin, o cümlədən "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin və onun tabeliyindəki tibb müəssisələrinin bu Qərarla tanış edilməsi Vətəndaş müraciətləri və sənədlərlə iş departamenti (E.Mikayılov) tərəfindən təmin edilsin.

5. Bu Qərarın icrasına ümumi nəzarət İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramovaya həvalə edilsin.

6. Bu Qərarın 1-ci hissəsi 1 aprel 2021-ci il tarixdən tətbiq edilir.

Əsas: "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində çalışan səhiyyə işçilərinin əmək haqları ilə bağlı məsələlərin tənzimlənməsi üzrə Komissiyanın iclasının 23 noyabr 2021-ci il tarixli 1 nömrəli protokolu

**İdarə Heyətinin sədri** **Zaur Əliyev**